**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/12** **14 dekabr 2023-cü il**

**Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 15 fevral tarixli 340/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya əsasən hazırlanmış və Palatanın internet səhifəsində yerləşdirilmiş reytinq məlumatlarından bir sıra kənar istifadəçilər tərəfindən məhdudlaşdırıcı və reklam məqsədləri ilə isifadə edilməsi, auditor xidməti bazarlarında haqsız rəqabət hallarının yaranmasına səbəb olması və nəticə etibarilə auditin təşkili və tənzimlənməsinə neqativ təsiri, habelə peşə üzrə reytinqlərin tənzimləyici orqanlar tərəfindən deyil, müvafiq reytinq agentlikləri tərəfindən tərtib edilməsi üzrə beynəlxalq təcrübə barədə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məlumatını nəzərə alaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 15 fevral tarixli 340/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"nın tətbiqi dayandırılsın.
2. Auditorlar Palatasının internet səhifəsində mövcud olan "Auditorların reytinq cədvəli" bölməsi ləğv edilsin.
3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**